# RESPUBLİKA ELMİ-TEXNİKİ KİTABXANALARINDA MÜTƏXXƏSİSLƏRƏ KİTABXANA-İNFORMASİYA XİDMƏTİNİN TƏŞKİLİ

**M.Ə.MƏMMƏDOV**
***pedaqogika üzrə fəlsəfə doktoru, dosent***
***Bakı Dövlət Universiteti***
***m.mehmanəli@.mail.ru***

***Açar sözlər:*** *kitabxana-informasiya xidməti, elmi-texniki kitabxanalar, müasir informasiya cəmiyyəti*

Azərbaycanın kitabxana sisteminin iri bir şəbəkəsini təşkil edən texniki kitabxanaların inkişaf tarixi respublikamızın neft sənayesinin inkişafı ilə bağlı olmuşdur. Bu kitabxanalar respublika dövlət elmi və texniki informasiya sisteminin tərkib hissəsi olmaqla yanaşı, həmçinin mənsub olduğu və xidmət etdiyi sənaye sahələrinin, idarə və müəssisələrin ayrılmaz bir hissəsini təşkil edir. Ölkəmizdə texniki kitabxanaların planlı və məqsədyönlü şəkildə təşkili XX əsrin 20-ci illərinin ikinci yarısından sonra və 30-50-ci illərdə başlamışdır. O dövrdə ölkə sənayesinə ümumi rəhbərliyi həyata keçirən Ali Xalq Təsərrüfatı Şurası sənayenin müxləlif sahələrində çalışan fəhlə və mühəndis-texniki işçilərin peşə və ixtisas səviyyələrinin artırılması üçün texniki kitabxanaların açılmasını məqsədəuyğun hesab etmişdir. Hazırda bu kitabxanalar respublikamızda fəalliyyət göstərən texniki kitabxanaların özəyini təşkil edir.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra ölkəmizdə kitabxana işinin inkişaf konsepsiyası işlənmiş, kitabxa işi haqqında qanun qəbul edilmiş və digər normativ sənədlər işlənmişdir. Respublikamızda texniki kitabxanalar əsasən sənaye sahələrində təmsil edilir və onların əsas informasiya ehtiyatları kimi fəaliyyət göstərirlər. 1987-ci il məlumatına görə respublikamızda 832 elmi-texniki və xüsusi kitabxana fəalliyyət göstərmişdir. Hazırda onların yarısından çoxu bağlanmış və ya ləğv edilmişdir. Bu şəbəkədə metodiki təminatı həyata keçirən Respublika Elmi Texniki Kitabxanası tərəfindən 1990-cı ildə buraxılmış göstəricidə 150-yə qədər texniki kitabxana haqqında məlumat verilmişdir. Həmin göstəriciyə görə, 1990-cı ildə respublikamızın sənaye müəssisələrində 77 texniki kitabxana fəalliyyət göstərmişdir. 2007-ci ildə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi "Azərbaycan kitabxanaları XXI əsrin informasiya məkanında" adlı məcmuəsində 29 texniki kitabxana haqqında məlumat vermişdir. Bu kitabxanaların əksəriyyəti Azərbaycan Respublikasının Dövlət Neft Şirkətində cəmlənmişdir.

Respublika texniki kitabxanalar şəbəkələri aşağıdakı kimidir:

1. Çoxsahəli və ixtisaslaşdırılmış respublika əhəmiyyətli kitabxana mərkəzi: Respublika Elmi Texniki Kitabxanası, onun filialları olan Respublika Patent fondu və Respublika Standartlar fondunun kitabxanaları.

2. Çoxsahəli Muxtar Respublika Kitabxana mərkəzi. MR-in Elmi texniki kitabxanası.

3. İstehsalat və elmi istehsalat birliklərinin dayaq elmi kitabxanaları.

4. İstehsalat müəssisələrinin, konstruktur bürolarının və layihə təşkilatlarının elmi texniki kitabxanaları.

Azərbaycanda vahid kitabxana sisteminin ayrıca bir şəbəkəsi kimi formalaşan texniki kitabxanaların sosial funksiyaları və vəzifələri ölkədə gedən demokratik cəmiyyət quruculuğu vəzifələrinə və tələblərinə uyğun formalaşmışdır. Texniki kitabxanaların qarşısında qoyulmuş vəzifələr, onların iş forması, quruluşu və metodlarını müəyyənləşdirmişdir. Ölkənin təsərrüfat sistemində çalışan işçilərə kitabxana-informasiya xidmətinin təşkili mühüm rol oynayır. “Texnika” adı altında o kitabxanalar başa düşülür ki, sənaye müəssisələri, idarə işçilərinin peşə-informasiya tələbatını ödəmək üçün yaradılır.

Texniki kirabxanaların fərqləndirici xüsusiyyətləri belədir:

1. Texniki kitabxanalar konkret olaraq bu və ya digər idarə və müəssisələrin kollektivlərinə xidmət göstərir. Texniki kitabxanaların fəaliyyəti konkretdir, operativ istehsalat-informasiya xidməti göstərirlər.

2. Onların fəaliyyəti əmək kollektivlərinin ixtisas-peşə tələbatlarının ödənilməsi üzrə istiqamətlənmişdir. Texniki kitabxanaların fəaliyyəti yeni cəmiyyət quruculuğunda aktual məsələlərin həllində aktual məsələ hesab edilir.

3. Texniki kitabxanalar xidmət etdikləri müəssisələrin fəaliyyətində mühum rol oynayır. Əmək bölgüsü yaranır: birincisi qabaqcıl elmi-texniki nailiyyətlər istehsalata tətbiq olunur, ikincisi, lazım olan informasiyaları toplayıb müəssisə işçilərinin diqqətinə çatdırır, müntəzəm olaraq yeniliklərlə işçiləri təmin edir. Lakin, sonradan məlum olmuşdur ki, heç də xarici ölkələrdə kitabxana işinin vəziyyəti bəzi Sovet kitabxanaşünaslarının qeyd etdiyi kimi acınacaqlı vəziyyətdə olmamışdır. Qeyd edilməlidir ki, digər kitabxanalardan fərqli olaraq, texniki kitabxanaların işində oxucuların mədəni-texniki səviyyəsinin yüksəldilməsi vəzifəsi mühüm yer tutur.

“Mədəni-texniki səviyyə” anlayışına, peşə biliyi və istehsalat təcrübəsindən başqa elmi dünyagörüşünün formalaşması, ictimai-siyasi hazırlıq, ümümi mədəni səviyyənin yüksəlməsi, estetik baxışların inkişafı və s. də aiddir. Bununla əlaqədar texniki kitabxanaların əsas funksiyaları aşağıdakı kimi müəyyən edilmişdir:

– *informasiya funksiyası* ondan ibarətdir ki, istehsalçıların müxtəlif istiqamətli informasiya tələbatını və sorğularını ödəyir, onların peşə ixtisaslarının yerinə yetirilməsinə köməklik göstərir;

– *təhsil funksiyası* onunla xarakterizə olunur ki, sənaye işçilərinin ümummədəni dünyagörüşünün genişlənməsi, xalq təsərrüfatı mütəxəssis-lərinin və geniş zəhmətkeş kütlələrin fasiləsiz təhsilinə yardım göstərilməsi, fəhlələrin peşə hazırlığında mühəndis-texnik işçilərinə, ali və kənd orta ixtisas məktəblərinə xidmət göstərmək;

– elm və istehsalat funksiyası, elmi-texniki yeniliklərin sənayedə geniş tətbiqinə nail olmaq üçün elm və texnikanın ən son yeniliklərini əks etdirən ədəbiyyat və informasiya ilə sənaye işçilərinin və mütəxəssislərinin tələbatı-nın tam və operativ ödənilməsi ilə müəyyənləşmişdir. Yeni texnika və qabaqcıl texnologiya haqqında ədəbiyyat təbliği texniki kitabxanaların diqqət mərkəzindədir. Məhz belə ədəbiyyatın təbliğində texniki kitabxanaların əsas ictimai funksiyası – istehsalat funksiyası müəyyən edilir.

Texniki kitabxanaların fəaliyyətinin əsası olan yuxarıda göstərilən istiqamətlər vaxtilə böyük mübahisələrə səbəb olmuş və bir sıra nəzəriyyələr və “mübarizələr” də inkişaf etmişdir. Onlardan *birincisi* texniki kitabxanaların bütün işinin yalnız informasiya vəzifələrinə tabe olmasına tərəfdar idi; *ikinci* nəzəriyyə texniki kitabxanaların yalnız sənayedə çalışan yüksəkixtisaslı kadr-lara xidmət etməsindən ibarət idi; *üçüncü nəzəriyyə* isə texniki kitabxana fondlarının yalnız texniki ədəbiyyat ilə təchiz edilməsini tələb edirdi; *dördüncü* texniki kitabxanaların yerli həmkarlar ittifaqı kitabxanaları ilə birləşməsini təklif etmişlər.

Rcspublikamızın elmi-texniki kitabxanalarında oxucuların əksəriyyətini mühəndis-texniki işçilər təşkil edir. Qapalı xarakter daşıyan bu kitabxanalarda kitabxana-informasiya və soraq-informasiya xidməti fərqləndirilir və formaca fərdi və kütləvi xidmət növlərinə bölünür. Digər kitabxanalar kimi ETK-larda da xidmətin məxsusi profili vardır. Burada əsas profil əlaqədar idarə və ya müəssisənin mütəxəssis və fəhlələrin elmi-texniki informasiyaya tələblərinin və sorğularının operativ şəkildə ödənilməsindən ibarətdir.

## ƏDƏBİYYAT

*1. Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu // "Azərbaycan" qəzeti, 1999, 14 mart.*

*2. Xələfov A.A. Kitabxanaşünaslığa giriş: Dərslik. 3 hissədə. I hissə. – Bakı, 2003, 314 s.*

*3. Kazımov R. Bazar iqtisadiyyatı və kitabxanalar: Dərs vəsaiti. Bakı, 1996, 32 s.*

*4. Kazımov R. Kitabxana işinin iqtisadiyyatı: Dərs vəsaiti. Bakı, 2004, 87 s.*

## LIBRARY AND INFORMATION SERVICES PERSONNEL IN SCIENTIFIC AND TECHNICAL LIBRARY OF THE REPUBLIC

**M.A.MAMMADOV**

***SUMMARY***

***Keywords:*** *library-information service, technical libraries, technical library networks*

*The orqanization of library-information service for specialists in scientific and technical libraries. The modern condition of condition of technical libraries and the functioning of technical libraries in various ministries has been informed and their numbers have been identified in the scientific article. Moreover, the technical library networks have been informed, there functions and areas of activity have been indicated in the article as well.*

## БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННОЙ ОБСЛУЖИВАНИЕ СПЕЦИАЛИСТОВ В НАУЧНО-ТЕХНИЧЕСКОМ БИБЛИОТЕКИ РЕСПУБЛИКИ

**М.А.МАМЕДОВ**

***РЕЗЮМЕ***

***Ключевые слова:*** *библиотечно-информационное обслуживание, научно-технические библиотеки, современное информатизированное общество*

*Статя рассматривает консептуалыный анализ информационной обслужевание патрибителя в научно-технических библиотеках Азербай-джана в условиях современном информатизированном обшестве. Осве-шено в асновном теоретика-аналитические направление деятельности научно-технических библиотек.*